Elmi Xəbərlər Jurnalı Nömrə 3, 2024 183-185
DOI:10.30546/gdu.3.2024

UOT:781.

# BƏSTƏKAR TELMAN HACİYEVİN UŞAQ MAHNILARININ SƏCİYYƏVİ CƏHƏTLƏRİ

***s.ü.f.d. Seyfullayeva Nüşabə Nəriman qızı***
***Gəncə Dövlət Universiteti***
**seyfullayevanushaba@mail.ru**

**Xülasə:** *Tanınmış Azərbaycan bəstəkarı Telman Hacıyevin (1930-1991) yaradıcılığında diqqəti cəlb edən əsas mövzulardan biri də uşaq tematikasına müraciət, uşaq dünyasının tərənnümü və uşaqlar üçün yazılmış əsərlərlə bağlıdır. Məqalədə bəstəkarın uşaqlar üçün nəzərdə tutulan mahnıları araşdırılmış, uşaq mahnılarının səciyyəvi cəhətləri müəyyənləşdirilmişdir.*

**Açar sözlər:** Bəstəkar, yaradıcılıq, mahnı, uşaq , mövzu, müasir.
**Key words :** Composer, creativity, song, child, topic, modern.
**Ключевые слова:** Композитор, творчество, песня, дети, тема, современность

Tanınmış Azərbaycan bəstəkarı Telman Hacıyevin (1930-1991) yaradıcılığında mahnı janrında bəstələdiyi əsərlər mövzu müxtəlifliyi ilə fərqlənir. Bəstəkarın mahnılarını mövzusuna görə bir neçə yerə bölmək olar: Vətən haqqında mahnılar, xalqlar dostluğunu tərənnüm edən mahnılar, əmək mahnıları, gəncliyə həsr olunmuş mahnılar, lirik məhəbbət mahnıları, uşaq mahnıları. Bəstəkarın yaradıcılığında diqqəti cəlb edən əsas mövzulardan biri də uşaq tematikasına müraciət, uşaq dünyasının tərənnümü və uşaqlar üçün yazılmış əsərlərlə bağlıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycan musiqi mədəniyyətində 1960-1970-ci illər kütləvi uşaq mahnılarının inkişaf dövrü olmuşdur. Kütləvi uşaq mahnılarında ölkənin həyatının tərənnüm olunması, böyük vətəndaşlıq duyğularınun aşılanması öz əksini tapır. Həmin illərin uşaq mahnılarındakı yeniliklər, mövzu və obrazlar seçiminin genişləndirilməsi, musiqi dilinin əhəmiyyətli dərəcədə zənginləşməsi, müasirləşməsi, həmçinin janr və forma rəngarəngliyi özünü aydın göstərir. Bu dövrdə bəstəkarların yaradıcılığında uşaq mahnılarını müasirliklə əlaqələndirmək, uşaqları müasir musiqi dünyasına daxil etmək meyli müşahidə olunur.

T.Hacıyevin mahnılarının xalq musiqi janrları ilə əlaqələndirilməsi baxımından belə bir cəhəti qeyd etmək istərdik ki, xalq mahnı yaradıcılığında da mövzudan asılı olaraq qruplara bölünmə özünü göstərir. Belə ki, xalq mahnılarının əmək, mərasim, məişət, tarixi mahnılar kimi janr qruplarına və onların daxilində lirik, yumorlu və satirik, uşaq mahnıları kimi növlərə bölünməsi məlumdur.

Əlbəttə ki, bəstəkar yaradıcılığı –professional, xalq mahnıları isə folklor olmaqla, musiqi yaradıcılığının müxtəlif təbəqələrinə aiddir. Bununla belə, bəstəkar yaradıcılığı folklordan bəhrələnmişdir. Bu baxımdan, xalq mahnıları bəstəkar mahnılarının zəngin qaynağıdır. Xalq mahnılarının janr xüsusiyyətləri, məzmunu, musiqi dili bəstəkarlar tərəfindən geniş surətdə istifadə olunaraq, onların musiqi üslubunu zənginləşdirmişdir. Eyni zamanda, məzmun baxımından yanaşdıqda, bəstəkar yaradıcılığında bir sıra yeni xüsusiyyətlər meydana gələrək, mövzu dairəsini və janrın imkanlarını genişləndirmişdir.

Azərbaycan xalq mahnılarının bir qolu olan uşaq mahnılarının məzmunu da xüsusilə diqqətəlayiqdir. Uşaqların dilindən oxunan xalq mahnılarında təbiətə münasibət, sanama, tapmaca mətnləri üstünlük təşkil edir. Bəstəkar mahnılarında isə bütün bu mövzularla yanaşı, uşaqların müasir həyata baxışları, məktəb, əmək, texniki tərəqqi, qəhrəmanlıq, vətənpərvərlik, valideynə məhəbbət və hörmət və s. kimi mövzuların işlənilməsi geniş yayılmışdır.

DOI:10.30546/gdu.3.2024

Bu baxımdan T.Hacıyevin uşaq mahnılarının mövzusu çox rəngarəngdir. Ölkənin əmək həyatı ilə bağlı olan “Balaca neftçi” (söz. R.Zəkanın), təbiətə sevgi aşılayan “Üzüm bağında” və “Yaşıl meşə” (söz. M.Seyidzadənin), uşaqların həyatını əks etdirən “Qaç-gizlən” (söz. M.Seyidzadənin), “Keçi balası”, “Mənə balaca deməyin” (söz. R.Zəkanın), “Mən çapıram” (söz. M.Əliyevin) və s. mahnıları göstərmək olar.

T.Hacıyevin bütün bu mahnıları mövzu ifadəliliyi ilə seçilir. Burada uşaqların qəhrəman olmaq arzusu, həyatsevərliyi, təbiətə münasibəti, oyunlara marağı ifadə olunur.

Bəstəkarın mahnılarının əsas xüsusiyyəti ondan ibarətdir ki, o, şeirin mahiyyətini itirməyib, əksinə onu musiqi ilə üzvi şəkildə qovuşdurur. Bu mənada bəstəkar şeirin ruhunu çox gözəl duyaraq, onu musiqidə düzgün tənzimləyir.

Bəstəkarların uşaq mahnılarındakı melodiyalar çox sadə və yaddaqalandır. Uşaq mahnılarının sözləri sadə sözlərdən və qısa ifadələrdən ibarətdir. Məzmun çox vaxt gündəlik həyat, təbiət, heyvanlar, oyunlar və fantaziya ilə bağlıdır.

Xalq musiqisində olduğu kimi T.Hacıyevin musiqisinin ritmik dili çoxcəhətli və rəngarəngdir. Uşaq mahnılarında bəstəkar sadə xanə ölçülərindən istifadə edir.

T.Hacıyev uşaq mahnılarında öz bədii dəsti-xəttini yaratmışdır. Onun dostluğu, vətəni, təbiəti və əməyi təcəssüm etdirən mahnılarının əsasını müəyyən süjet xətti təşkil edir ki, bu da mahnının özünəməxsus uşaq oyununa çevrilərək, iştirakçıların canlı ifasında daha da fəal hərəkətlilik qazanmasına şərait yaradır. Bəstəkarın uşaq mahnıları canlı və konkret obrazlı keyfiyyətlərə malik olan özünəməxsus intonasiyaları ilə fərqlənir.

Azərbaycan peşəkar bəstəkarlıq məktəbinin banisi Ü.Hacıbəyli “Azərbaycan xalq musiqisinin əsasları” fundamental elmi əsərində yazır: “Rast”, “Şur”, “Segah”, “Şüştər”, “Çahargah”, “Bayatı-Şiraz” və “Hümayun” Azərbaycan musiqisinin 7 əsas məqamıdır. Bunlardan Azərbaycanda ən çox yayılanlar “Şur” və “Segah”dır. Azərbaycan xalq mahnıları, rəqs havaları və s. musiqi formalarının çoxu bu iki məqamda qurulmuşdur. “Rast”, “Şüştər”, “Çahargah”, “Bayatı-Şiraz” daha geniş yayılmış məqamlardandır. Hamısından az işlənən “Hümayun”dur.

Bədii-ruhi təsir cəhətindən “Rast” dinləyicidə mərdlik və gümrahlıq hissi, “Şur” şən lirik əhval-ruhiyyə, “Segah” məhəbbət hissi, “Şüştər” dərin kədər, “Çahargah” həyəcan və ehtiras, “Bayatı-Şiraz” qəmginlik, “Hümayun” isə “Şüştər”ə nisbətən daha dərin kədər hissi oyadır [1, s.19] .

Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin ənənələrini ustalıqla davam etdirən T.Hacıyevin musiqi əsərlərində, o cümlədən uşaqlar üçün nəzərdə tutulan əsərlərində Azərbaycan lad-məqamlarına istinad ən əsas cəhətlərdəndir. Bəstəkarın yaradıcılığı özünəməxsus milli ahəngliyi ilə seçilir. T.Hacıyevin mahnılarının təhlili onların musiqi dilinin məqam əsasının maraqlı xüsusiyyətlərini üzə çıxarır.

Beləliklə, Telman Hacıyevin uşaq mahnıları milli mənbələrə yaxınlığı, maraqlı lad-məqam, metroritmik xüsusiyyətlərinə görə diqqəti cəlb edir. Azərbaycan xalq musiqisinin intonasiya xüsusiyyətlərindən istifadə bəstəkara milli musiqi obrazının yaradılmasına imkan verir.

T.Hacıyevin musiqisi özünün melodikliyi, ifadə səmimiliyi, professionalizmi ilə diqqəti cəlb edir. Vokal sənətini yaxşı bilməsi bəstəkara imkan verir ki, uşaqlara rahat oxumaq üçün tessitura baxımından əlverişli musiqi yaratsın.

Bütün bunlar T.Hacıyevin əsərlərinin təkrarolunmaz milli səciyyəsinin üzə çıxarılmasına imkan verir.

Bəstəkarın sadə melodik quruluşa malik uşaq mahnıları yaddaqalan olub, uşaq repertuarında çox sevilən nümunələrdir. Bu mahnılar uşaq təxəyyülünün genişləndirilməsi,

DOI:10.30546/gdu.3.2024

onların ətraf aləmlə, əşyalarla, təbiət hadisələri ilə tanışlığı baxımından maraqlı olmaqla yanaşı, həm də böyük tərbiyəvi əhəmiyyətə malikdir.

T.Hacıyevin bütün əsərlərində, hansı janrda, hansı mövzuda yazmağından asılı olmayaraq, onun Vətən sevgisi, vətəndaşlıq hissləri, insanlara qarşı – uşaqdan böyüyə kimi, səmimi duyğuları öz qabarıq əksini tapır. Bu da bəstəkarın musiqisinin dərin mənasını və təsir qüvvəsini artırır.

***Ədəbiyyat***

1.Hacıbəyli Ü. Azərbaycan xalq musiqisinin əsasları. //XX əsr Azərbaycan musiqi elminin abidələri silsiləsindən. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 100 illiyi münasibətilə. Tərt. və məsul red. T.Məmmədov. Bakı, 2019, 360 s.
2.Həsənova C.İ. Azərbaycan musiqisinin məqamları. Bakı, Elm və təhsil, 2012, 232 s.

3.Эфендиева И.М. Азербайджанская советская песня. Баку, 1983, 150 с.
4.Эфендиева И. М. Тельман Гаджиев. Баку, Ишыг, 1983, 36 с.

## ХАРАКТЕРИСТИКА ДЕТСКИХ ПЕСЕН КОМПОЗИТОРА ТЕЛЬМАНА ГАДЖИЕВА

***Сейфуллаева Нушаба Нариман кызы***

***Резюме***

Одна из основных тем, привлекающих внимание в творчестве известного азербайджанского композитора Тельмана Гаджиева (1930-1991), связана с обращением к детской тематике, прославлением детского мира в произведениях, написанных для детей. В статье были рассмотрены детские песни композитора и определены их характерные особенности.

## THE CHARACTERISTIC FEATURES OF COMPOSER TELMAN HAJIEV›s CHİLDREN›S SONGS

***Seyfullazada Nushaba Nariman***

***Summary***

The article focuses on the theme of childhood in the works of the renowned Azerbaijani composer Telman Hajiyev (1930-1991). It highlights the composer's attention to the depiction of the child's world and his compositions written for children. The article examines songs dedicated to children, researching the works intended for them and identifying the efforts to create children's so.

***Rəyçi: dosent Məmmədova Qəsirə***
***Musiqi fənləri kafedrasının 12 iyun 2024-cü il tarixli iclasın 20 saylı protokolu***
***Daxil olma tarixi 26 sentyabr 2024-cü il***